# İNTERNET FOLKLORUNA DAİR YENİ ARAŞDIRMA

Gənc folklorşünas Hikmət Valeh oğlu Quliyev folklorşünaslığımızda folklora yeni yanaşma tərzi ilə elmi ictimaiyyətlə görüş gəlir. AMEA Folklor İnstitutunun 2018-ci ildə çapdan buraxdığı "Virtual mühitdə folklor: ənənə və kommunikasiya" kitabının elmi redaktorları akademiklər Rasim Əliquliyevlə Muxtar Kazımoğlu, rəyçiləri fəlsəfə doktorları Sərxan Xavəri və Səfa Qarayevdir. Adından göründüyü kimi, monoqrafiyada virtual mühitdə gedən folklor prosesləri araşdırmaya çəkilir. Əsərin girişində müəllif ənənəvi folklorşünaslıq çərçivəsindən kənara çıxıb, dünya folklorşünaslq elmi ilə uzlaşan tələblərlə ayaqlaşmağın zərurətindən bəhs açır: "Müasir dünya folklorşünaslığının prioritet elmi istiqamətlərindən olan İnternet folkloru, texnokulturoloji mühitdə gedən folklor prosesləri, virtual-kommunikativ şəraitdə folklorik dinamika məsələlərinə münasibət bu gün Azərbaycan folklorşünaslığında heç də birmənalı deyil. Şübhəsiz ki, məsələnin obyektiv və subyektiv tərəfləri mövcuddur. Məlumdur ki, hər bir yeni elmi istiqamət özü ilə bərabər çoxlu sayda terminlər, tanış olmayan istilah və anlayışlar gətirir. Həmin anlayışların qavranılması, yeni elmi metodologiyanın mənimsənilməsi və məsələnin qoyuluşunun dərk olunması bir qədər zaman tələb edən prosesdir. Təbii ki, bu, məsələnin obyektiv tərəfidir.

Problemə yanaşmada özünü göstərən subyektivlik isə, müasir çağın ən böyük fenomeni olan İnternetin, real həyata paralel olaraq inkişaf edən və çox sürətlə onu öz ağuşuna alan virtual dünyanın, virtual gerçəkliyin nəzərdən qaçırılması, folklor üçün "hava-su" qədər vacib olan yeni kommunikativ mühitin, bir qədər sərt şəkildə ifadə etsək, gözardı edilməsidir. Bəlkə də, məsələ subyektivlikdən daha çox, humanitar və ictimai elmi düşüncənin metodoloji baxımdan müasir tələblərə cavab verməməsindən qaynaqlanır.

İnformasiya-kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi hazırki dövrdə bütün elmlərin öz obyektinə münasibətini yenidən müəyyənləşdirdiyi, ənənəvi yanaşmaların "reviziya" olunduğu bir şəraitdə "keçmişin koloritli xatirəsi", "gəlişi gözəl sözlərin xəzinəsi" kimi xarakterizə edilən folklora metodoloji yanaşmamız, milli-mənəvi dəyərləri elmi stereotiplər səviyyəsində "öyrənməklə" xarakterizə olunan predmetimizə münasibətimiz bəs nə zaman dəyişəcək?!

Ənənəvi mövzular, retro baxışlar, xalq biliyini bütün çalarları ilə öyrənmək əvəzinə, onu ali, yüksək, dəyər və kult hesab edərək mühafizəkarcasına sərgilənən yanaşmalar, heç şübhəsiz ki, folkloru özünün aid olduğu semantika daxilində araşdıra bilməz. Çünki folklor ayrı-ayrı sosial qrupların maraq və arzularına müvafiq olaraq yaratdığı, özününkü hesab etdiyi, situasiya və sosial şərtlərə görə dəyişdirdiyi, yeniləşdirdiyi, təkrar-təkrar söyləməklə variantlaşdırdığı, özü-özünə senzura tətbiq etməklə ənənəviləşdirdiyi, gerçəkliyi, onun ən müxtəlif aspektlərini təcəssüm etdirməklə metaforik və simvolik işarələrlə mənalandırdığı xalq biliyidir. Eləcə də, hər cür kommunikasiya şəraitində (real, virtual, üz-üzə, distant, yazılı, şifahi və s.) meydana çıxan, insanın mövcud olduğu bütün məkanlarda və mühitlərdə özünüifadədən doğan folklora – söz, hərəkət, qrafik işarə, jest, mimika (lallar arasına mövcud olan ortaq işarələr), audio, video, multimedia və s. formatlarda yaranan xalq (sosial qrup) biliyinə münasibətimizi müasir elmi qənaətlər, ayrı-ayrı elmi məktəblərin baxış aspektləri, nəzəri-metodoloji ümumiləşdirmələr nəzərə alınmadan dəyişdirə bilmərik".

Göründüyü kimi, Hikmət Quliyev qəti mövqe nümayiş etdirir və Azərbaycan folklorşünaslığı üçün yeni olan bir baxış sərgiləyir, özünün tutduğu yeni elmi istiqamətin, hər şeydən öncə, çağdaş zəmanəmizlə-texniki inkişafın yüksək sürətli, sıçrayışlı inkişafı ilə də bağlı olduğunu əsaslandırır. Başqa sözlə, əgər elm-texnika bu qədər dərəcədə yüksək səviyyədə inkişaf edirsə, deməli, buna müvafiq də ictimai-mədəni şüur səviyyəsi inkişaf etməlidir. O ictimai-mədəni şüurun əsas göstəricilərindən biri də özünü hər bir xalqın şüurunu-fikir dünyasını əks etdirən folklorunda təcəssüm etdirir. Yoxsa ki, bu reallığa zidd olan dünyagörüş nümayiş etdirəsi olsaq, onda bir zamanlar dahi M.Ə.-Sabirin dediyi sayaq, "əcnəbilər seyrə balonlarla çıxdığı halda, biz yenə də avtomobilə şeytan arabası" gözü ilə baxıb, mədəni-ictimai sivilizasiyadan geri qalmış olacağıq. Məhz bunun üçün də Hikmət Quliyev bunun çıxış yolunu da belə əsaslandırır: "Folklorşünaslığımızın İnternet folklorunun araşdırılmasına, akademik elmi düşüncənin bu gerçəkliyi fəlsəfi olaraq dərk etməsinə doğru "gələn yolu", heç şübhəsiz ki, dünya

folklorşünaslığının "Folklor nədir?", "Folk" anlayışındakı "xalq kimdir?", "lore" istilahındakı "bilik nədir?" suallarına verdiyi cavabdan, folklorun söyləyici, mətn və auditoriya bütövündə qəbul olunaraq, sosial şərt və situasiyalara adekvatlıq xarakteri və dinamik təbiətə malik olması, cari və aktual gündəmi ifadə etmək spesifikası barədə irəli sürdüyü qənaətdən, folklorun psixoloji kompleks və narahtlıqların təcəssümü, sosial protest və emosiyalar üçün "çıxış yolu", özünüifadə kanalı, sosial stress və gərginliyin, A.Dundesin sözü ilə desək "dütkeşi", "bacası" olması haqqında elmi baxışdan xəbərdar olması, onu özünün "dünyagörüşünə" çevirməsindən keçir.

Azərbaycan folklorşünaslığı bu gün İnternet folklorundan danışmaq üçün kənddən şəhərə, şəhərdən isə virtual dünyaya "köç" edən sosial kommunikasiya şərtlərindən xəbərdar olmalı idi. Sənayeləşmə, şəhərləşmə prosesləri nəticəsində monoparametrli mühitdən ən müxtəlif parametrlər üzrə təbii təşkilolunmalara ayrılmış şəhər mühiti, buradakı sosio-kulturoloji proseslər təhlil olunmalı idi.

***(Davamı 16-cı səhifədə)***

Kredo 2019.- 6 noyabr.- S.15-16.

*(Əvvəli 15-ci səhifədə)*

Şəhər folklorunun janrları, ənənəvi kənd mühitindən fərqli xüsusiyyətlər, eləcə də, folklorun şifahi və yazılı formada mövcudluğu barədə izahların yerini, folklorun yoxa çıxması, şəhərin kəndi sıxışdırması kimi pessimist “qayğılar” tutmuşdur. Bu günün özündə belə folklor toplama kitablarımızda söyləyicilərin yaşının çox olması, ümumiyyətlə, söyləyici deyərkən təssəvvürə “ağ saçlı”, “ağ birçəkli” şəxslər gəlməsi danılmaz faktdır. Yaxud folklor toplayıcısının əksərən “ədəb-ərkan” qaydalarına cavab verən, “milli-mənəvi dəyərlərə” uyğun gələn nümunələri qeydə alması, dünyanın hər yerində rast gəlinən, lakin bizdə olması qeyri-mümkün olan faktları görməzdən gəlməsi kimi önyarğılarımız, təbii ki, folkloru olduğu kimi, qəbul etməyimizə, araşdırmağımıza imkan verməyəcəkdir. Bu gün tədqiqatda fallik, erotik, cinsi qarşıdurma, Edipal kompleks, insest kimi elmi terminlərdən “ayağının ucunda yeriməklə” istifadə edən folklorşünaslarımız hər an qaragüruhun qəzəbinə düçar olmağın narahatlığını yaşamaqdadırlar. “Arzuolunmaz kürəkən” nağılı (və ya lətifəsi) ətrafında baş verənlər, təkcə bir iddiaçının diletantlığının




# İNTERNET FOLKLORUNA DAİR YENİ ARAŞDIRMA

göstəricisi deyil, XXI əsrin birinci qərinəsini yaşayan folklorşünaslığımızın metodoloji cəhətdən “əliyalın”lığının, haqlı olduğu halda haqsız duruma düşməyinin təzahürü idi. Belə olmasaydı, həmin olay zəminində söyləyicini, toplayıcını, naşiri, redaksiya heyətini qınamağın deyil, əksinə, qarşı tərəfi qeyri-peşəkarlıqda mühakimə etməyin fərqində olardıq. Lakin görünən o oldu ki, ən “peşəkarlarımız” belə bu vəziyyətdən çıxış yolu tapmaqda çətinlik çəkdi. Belə bir şəraitdə, bəs görəsən, Pertev Naili Boratav tərəfindən dünyanın ən müxtəlif ölkələrinin arxivlərindəki əlyazmalardan min-bir zəhmət bahasına, 47 ilə araya-ərsəyə gələn və ən müqəddəs, ən ali dəyərləri ələ salan, əksər mətnləri söyüşlə, nalayiq ifadələrlə dolu olan Molla Nəsrəddin lətifələrini toplayanı, tədqiq edəni, əlyazmaya daxil edəni hansı cəza ilə cəzalandırmaq lazım idi?! Bəlkə, bu mətnlərə erotik, hətta pornoqrafik ifadələri kimsə “sonradan” daxil edib? Koroğludakı qaçaqçılıq, quldurluq, yol kəsənlik, Dədə Qorqudakı trikstерlik əlamətləri məgər təsadüfdürmü?

Təbii ki, bu suallara cavab vermədən, folkloru olduğu kimi toplamadan, tədqiq etmədən, bu mərhələləri keçmədən, intəhasız şəkildə çulğalaşmaların baş verdiyi, ideoloji, fəlsəfi və fundamental toqquşma və inteqrasiya proseslərinin getdiyi, kommunikasiya üçün yeni bir platformanın meydana çıxdığı, sosial-mədəni proseslərin cərəyan etdiyi İNTERNET mühitini anlamaq, onun öz predmetinə çevirmək çox çətin və mürəkkəb məsələdir. Ənənənin hakimi-mütləqliyinin, əlahiddə senzurasının, eyni zamanda hüquqi məsuliyyətin aradan qalxdığı, insanların sərbəst, anonim, “fake profile”(“saxta profil”) və “nickname”-lər (“ləqəb, ayama”lar) vasitəsilə münasibət və davranışlar sərgilədiyi bir mühitdə gedən folklor proseslərini dərk etmədən, yeni nəsil folklor nümunələrini təhlil etmədən müasir folklorşünaslıqdan danışmağın nə qədər absurd olduğunu təsəvvür etmək çətin deyil”.(səh 7-9).

Bu minvalla özünün konkret elmi baxışlarını bəri başdan ortaya qoyan tədqiqatçı “Virtual mühitdə folklor: problemin nəzəri-metodoloji aspektləri” adlı ilk hissədən fikirlərinin – irəli sürdüyü mülahizələrinin əsaslı elmi-nəzəri şərhini verir. Beləliklə də dünya folklorşünaslığında xeyli vaxtdır ki, start götürmüş olan internet aləmində folklorun öyrənilməsi problemlərinin milli folklorşünaslığımızda tətbiqini və araşdırılması imkanlarını təhlildən keçirib, konseptual fikirlərini ortaya qoyur.

Şakir Əlifoğlu